BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2005*

# MƏZAHİR DAŞQININ LEGİON FƏALİYYƏTİ

Ş.T.QULİYEVA

Legion latın mənşəli sözdür. Könüllü hərbi birliklər mənasındadır. Legioner isə könüllü döyüşçü anlamındadır (3, s. 308). Qeyd olunmalıdır ki, II Cahan savaşında sovet hərbi əsirlərindən yaradılan bu könüllü dəstələr haqqında ilk geniş məlumat XX əsrin sonlarında «Müsavat» jurnalında verilmişdir (1). Sonralar bu yöndə tədqiqat aparan tarix elmləri namizədi Məmməd Cəfərli legion ədəbiyyatı nümunələrini çap etdirdi (2). Ümumiyyətlə, legionçularımız haqqında daha geniş tədqiqat işi isə tarix elmləri namizədi Nəsiman Yaqublunun 2002-ci ildə nəşr olunan «Azərbaycan legionerləri» monoqrafiyası oldu (3). Azərbaycan legionerlərinin mətbu, siyasi və ədəbi - tarixi irsinin yaradılmasında onların nəşr etdikləri qəzet və jurnalların, broşüraların, məcmuələrin böyük əhəmiyyəti vardır. Bu mətbu orqanlarda xalqımızın tarixi, ədəbiyyatı, dili təbliğ edilmiş, milli ruh, vətənpərvərlik hissi qorunub saxlanılmışdır.

Legionçuların ilk ədəbi nümunələrinə 1942-ci ildə Berlində nəşr olunan «Azərbaycan» qəzetində rast gəlinir. Bu qəzetin ədəbiyyat səhifəsində legionerlər müxtəlif adlar və təxəllüslərlə öz yazılarını çap etdirirdilər. Bu imzalar içində yaradıcılıq nümunələrinin mükəmməlliyi ilə daha çox diqqəti çəkən bir imza da var - legionçu Daşqın.

Kim idi legionçu Daşqın?

Məzahir Həmzə oğlu Axundov 1907-ci ildə (digər mənbələrdə 1909-cu il - Ş.Q.) Tərtər rayonunun Borsunlu kəndində anadan olmuşdur. Atası Məşədi Həmzə 1937-ci ildə NKVD tərəfindən güllələnmişdir. Müharibəyə qədər Məzahir xalq arasında aşıq kimi tanınırdı. 1939-cu ildən Azərbaycan Yazıçılar İttifaqının Gəncə filialının aşıq ifası şöbəsinə rəhbərlik etmişdir, həmçinin «Azərbaycan hünəri» qəzetində müxbir işləmişdir.

Məzahir Axundov 1941-ci il iyunun 24-də orduya çağırılıb, sovet ordusu sıralarında İranda olub, 1942-ci ilin iyulunda Kalmıkiya MSSR-in Arzgir şəhəri yaxınlığında əsir düşüb. 1943-cü ilin fevralında əsirlikdən azad olunduqdan sonra mənzil - qərargahı Polşanın Yedlino şəhərində yerləşən Azərbaycan legionerlərinin hərbi hissəsinə göndərilmiş, həmin ilin aprelində 818-ci batalyonun bu şəhərdə yerləşən musiqi taqımına komandir təyin edilmişdir. Bu musiqi taqımı 1943-cü ilin mayında Berlində Azərbaycan Xalq Cümhuriyyətinin 25 illik yubileyinə həsr olunmuş yığıncaqda iştirakçılar qarşısında konsert proqramı ilə çıxış etmişdir. Bundan sonra «Azərbaycan» qəzetinə ədəbi müxbir vəzifəsinə keçirilən Məzahir şerlərini Aşıq

Məzahir və Daşqın təxəllüsü ilə imzalayırdı (4). 1943-cü ilin avqustunda «Azərbaycan» qəzetində «Nöqsanlarımız haqqında» adlı yazı və yazının sonunda müraciət dərc edilir. Məqalədə legionçuların milli mahnılar əvəzinə əcaib şeylər oxumasından danışılır və sonda ədəbi fəaliyyətlə məşğul olan legionçulara müraciət edilir. Müraciətdə deyilir: «Biz gözəlcə bilirik ki, legionerlərimiz arasında qüvvətli talanta sahib olanlar vardır. Onları bu işə cəlb etməklə nöqsanları aradan qaldırmaq olar. Nöqsanlarımızı aradan qaldıralım və legionerlərimiz üçün elə mahnılar yazalım ki, o apardığımız milli azadlıq mübarizəmizdə bizə ilham və ruh versin. Bu çağırış birinci növbədə Ucadağlıya, Dənizə, Daşqına, Əzimliyə, Divaniyə, Zahidliyə və sair bunlar kimi gənc qüvvətlərimizə daha çox aiddir (Leg. Qürbətzadə)» (5).

Göründüyü kimi, Daşqının ədəbi istedadı burada da özünü göstərmiş və onu diqqət mərkəzinə çəkmişdir. O, musiqi taqımında fəaliyyətə başlayandan sonra 1943-cü ilin martında yazdığı şerlərindən biri «Vətən» adlanırdı. «Vətən bayquşu» adlı digər şeri isə Yedlino şəhərində yazılmış və ilk dəfə hərbi hissənin döyüş vərəqəsində, sonralar isə «Azərbaycan» qəzetində «Sənə nifrət» adı ilə çap olunmuşdur.

1943-cü ilin 6-8 noyabrında Azərbaycanlıların Berlində keçirilən I qurultayında bu sözlərə bəstələnmiş mahnılar səslənmişdir. Həmçinin onun «Azər» şerinə bəstələnmiş mahnı da qurultayın konsert proqramına daxil edilmişdir.

«Sənin adın çəkildikcə gülür üzüm, gülür şerim,
Qəhrəmandan gəl yaz deyir, varaqlanır dil dəftərim»

misraları ilə başlayan və

«Gərək yetsin Azərbaycan məşuqəsi istiqlala
Son qoyulsun göz yaşına, dil dərdinə, bu məlala.
Batan günəş qəhrəmanım! Yenə Şərqdən doğacaqdır,
Əqrəb kimi qaranlığı yurdumuzdan qovacaqdı
Heç bir zaman qul olmağı məhkum etməz tale bizə.
Almalıyıq, alacayıq qılınc ilə haqqımızı!» sözləri ilə bitən «Vətən qəhrəmanı» adlı bu şer müəllifin özü tərəfindən qurultayda oxunmuş və «Azərbaycan» qəzetinin 1944-cü il yanvar sayında dərc olunmuşdur (4, s.32).

Ümumiyyətlə, Daşqının şerlərinə bəstələnən mahnılar Almaniyada Azəri diasporasının təşkil etdiyi təntənəli tədbirlərdə tez-tez ifa olunurdu. Məzahir Axundov Azərbaycanlıların Berlin qurultayının işində şeir və mahnıların müəllifi kimi iştirak etməkdən başqa, qurultayın nümayəndəsi kimi də Azərbaycanda bolşevik hakimiyyətinin devrilməsinin labüdlüyü barədə siyasi nitq söyləmiş, Azərbaycan legionuna yenicə təyin olunmuş alman zabiti Bemenin Azərbaycan dilinə tərcümə edilmiş çıxışını oxumuş, daha sonra «Milli Birlik Məclisi» təşkilatına daxil olmuşdur. Məzahir Axundov legionerlər üçün təsis olunan «III dərəcəli medal»a layiq görülmüşdür. 1943-cü ilin axırlarında musiqi taqımı Azərbaycanda legionerlərin qalan hissəsi ilə birlikdə Fransaya köçürüldü. 1944-cü ilin martında Daşqın yenidən təşkil edilmiş mədəniyyət şöbəsinin rəhbəri seçildi. Həmin ilin martında o, təhsilini təkmilləşdirmək məqsədilə Potsdam təbliğat məktəbinə göndərilir və dekabrda ona alman ordusunun feldfebel rütbəsi verildi. Müharibənin son-

larına yaxın İtaliyanın Pyaçenza şəhərində çıxan «Bizim döyüş vərəqəsi» mətbu orqanı ilə əməkdaşlığa başlamış, «Axşamlar», «Bir də», «Şahin», «Könül həsrəti», «bayatılar» kimi ədəbi nümunələrini burada nəşr etdirmişdir (5, s. 34).

Müharibə bitdikdən sonra 1946-cı ildə vətənə qayıdan Daşqın «vətən xaini» adı ilə həbs edilib Sibirə göndərilir. 1956-cı ilin 23 iyununa qədər 10 illik zaman kəsiyində bu istedadlı şair həbsdə qalır. Lakin o, heç vaxt - nə müharibənin od-alovunda, nə cəhənnəmi xatırladan həbs düşərgələrində, nə də həbsdən sonra mövcud rejimin ona hazırladığı mənəvi həbsdə öz qələminə, şair təbiətinə dönük çıxmır, çap olunmasa belə, həmişə yazır-yaradır.

Məzahir Daşqın 1979-cu ilin 31 oktyabrında vəfat etmiş, doğma kəndi Borsunluda dəfn olunmuşdur.

Ümumiyyətlə, Məzahir Daşqının legion fəaliyyətinə aid olan məqaləni tarix elmləri namizədi N.Yaqublunun fikri ilə yekunlaşdırmaq yerinə düşür: «Azərbaycan legionerləri sovet rejimi əleyhinə yönəldiyindən, Stalin üsul-idarəsi ilə barışmadığından, xalqımızın milli müqavimət gücünü ortalığa qoyduğundan, Azərbaycan tarixində şərəfli yer tutmağa layiqdir» (3, s.275).

## ƏDƏBİYYAT


1. «Müsavat» jurnalı. Bakı, 1995, №5.
2. «Ekspres» qəzeti. Bakı, 2001, №86, 87.
3. Yaqublu Nəsiman. «Azərbaycan legionerləri». Bakı, BUN, 2002, 309 s. (şəkilli).
4. Cəfərli Məmməd. «Azərbaycan legion ədəbiyyatı». Bakı, 2004, 372 s.
5. «Azərbaycan» qəzeti, Berlin, 1943. №32 (60).


## ДЕЯТЕЛЬНОСТЬ МАЗАХИРА ДАШГЫНА КАК ЛЕГИОНЕРА


**Ш.Т.КУЛИЕВА**


## АННОТАЦИЯ


В статье исследуется литературно-общественная деятельность талантливого поэта Мазахира Дашгына, который был в рядах отряда легионеров, созданного Германским государством во II мировой войне из советских военных пленников.